Heydər Əliyev Fondu

# 2004 Xeyirxahlıq və mərhəmət ünvanı 2024






# Nə yaxşı ki Mehriban xanım var...

## Heydər Əliyev Fondunun uşaqlara qayğı missiyası uğurlu nəticələr verir






**"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**

Bu fikirlər təsdiqləyir ki, Azərbaycanın gələcəyini sağlam, təhsilli, vətənpərvər uşaqların böyüdülməsində görən Ulu Öndər Heydər Əliyevin dövlət siyasətinin prioritetlərindən birini uşaq siyasəti təşkil edib. Bu istiqamətdə mühüm qanunlar qəbul olunub, işlər həyata keçirilib.

Ulu Öndərin siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin gündəliyində də uşaqların inkişafı və gələcəyi ilə bağlı məsələlər vacib yer tutur. Təsadüfi deyil ki, ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən birini sağlamlıq imkanları məhdud olan uşaqlara sosial xidmətlərin göstərilməsi təşkil edir.

Ümummilli Liderin adını daşıyan, bu il fəaliyyətinin 20-ci ilini tamamlayan Heydər Əliyev Fondu da yarandığı ilk gündən bu sahəni daim diqqət mərkəzində saxlayır. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə uşaq evləri, reabilitasiya və sağlamlıq mərkəzləri, təhsil ocaqları yaradılır, bərpa edilir, bir sözlə, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə qaytarılması üçün hərtərəfli işlər aparılır. Belə mərkəzlərdən biri də Saray qəsəbəsində yerləşən 2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsidir.

### Onların hər gəlişi uşaqlar üçün toy-bayramdır

2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsi 1974-cü ildən fəaliyyət göstərsə də, 2010-cu ildən ikinci yeni həyatına başlayıb. Bura Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparıldıqdan sonra müasir standartlara cavab verən sosial xidmət müəssisəsinə çevrilib. "Saray 7 saylı ağıldankəm uşaqlar üçün internat evi" kimi fəaliyyət göstərmiş mərkəzin adı 2015-ci ildə dəyişdirilib. Burada 5-18 yaş arasında olan və təhsilə cəlb edilməyən, əlilliyi müəyyən olunmuş şəxslərə stasionar və yarımstasionar (günərzi) formada sosial, məişət, tibbi, psixoloji, pedaqoji, hüquqi və iqtisadi xidmətlər göstərilir. Mərkəzdə mentor və metodistlər tərəfindən uşaq və yeniyetmələrin hərtərəfli inkişafı üçün psixoloji və loqopedik təlimlər, əmək, müalicəvi rəqs, musiqi, nağıl və mətbəx terapiyaları həyata keçirilir. Dördmərtəbəli binanın birinci mərtəbəsində bu işlərin həyata keçirilməsi üçün inkişaf mərkəzi, kitabxana, emalatxanalar və müxtəlif fəaliyyət otaqları yerləşir.

Bizi mərkəzlə tanış edən direktor Pərvanə Səfərova bildirdi ki, hazırda mərkəzin 86-sı oğlan, 42-si qız olmaqla 126 sakini, onların həyata inteqrasiyası üçün kömək edən 102 işçisi var: "Həssas qrupa daxil olan uşaqlar daim dövlətin qayğı və nəvazişini üzərlərində hiss edirlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq mərkəzə gəlir, sakinlərimizin sağlamlığı və inkişafı ilə yaxından maraqlanırlar. Onların hər gəlişi uşaqlarımız üçün toy-bayram olur. Mehriban xanım və Leyla xanım uşaqlarımızın hər birini tanıyır, onlara fərdi yanaşır, məşğul olurlar, hər gəlişlərində onlara sovqatlar gətirirlər. Bu diqqət və qayğını görən sakinlərimiz də onların gəlişinə xüsusilə hazırlaşır, hər dəfə yeni nailiyyət, yeni bacarıqlarını nümayiş etdirirlər".













P.Səfərova qeyd edir ki, əsas məqsədləri təhsil ala bilməyən, fiziki və əqli bacarıqları məhdud olan sakinlərin həyata, cəmiyyətə mümkün qədər inteqrasiyasını təmin etməkdir: "Bacardığımız qədər onların özünəxidmət qabiliyyətlərini inkişaf etdirməklə, hər birimizin həyata keçirdiyi, lakin onlara mümkünsüz görünən adi işləri aşılamaqla ətrafdakılardan asılılıq səviyyələrini aşağı salmağa çalışırıq. Təkcə ötən il 10 sakin ailəsinə reinteqrasiya olunub. Bu rəqəm belə diaqnozlu uşaqlar üçün olduqca böyük göstəricidir. Çox istərdik ki, uşaqlarımızın hər biri müəyyən bacarıq və vərdiş qazandıqdan sonra ailələri ilə birlikdə yaşasınlar. Lakin təəssüf ki, bu, demək olar ki, mümkün deyil. Çünki onların 60-70 faizi yataq xəstəsidir. Digərlərinin əksəriyyəti ya valideynlərindən məhrum olub, ya da onların diqqətindən. Övladı mərkəzimizdə yaşayan hər bir valideynin hər bazar keçirilən görüş günlərinə gəlmələri sakinlərimizin əhvali-ruhiyyəsində müsbətə doğru dəyişikliyə səbəb olur. Bu da uşaqların inkişafına təsirsiz ötüşmür".

Mərkəzin direktoru məlumat verir ki, müəssisəyə daxil olan uşaqlar yaş, cins və xəstəliklərinə görə qruplara bölünür, buna uyğun olaraq onlar üçün sosial işçilər tərəfindən qiymətləndirilmə aparılır, ilkin fərdi inkişaf planları tərtib edilir. Bu fərdi planlar hər üç aydanbir inkişafa əsasən dəyişilir, həm də sakinlərin ilkin və sonuncu vəziyyətini müqayisə etməyə kömək edir, növbəti addımları müəyyənləşdirməyə imkan verir: "Uşaqların əksəriyyəti bura gəldikləri ilk gün qaşıqdan belə istifadə etməyi, yaxud stulda oturmağı bilmirlər. Müəssisəyə gələn uşaqların yaş aralığı da psixoloji və fizioloji baxımdan çox həssasdır. Onlar ya yetkinlikdən öncəki, ya da yetkinlik dövründədirlər. Hormonal dəyişikliklər nəticəsində əsəbləri daha gərgin olur. Mərkəzin mütəxəssisləri onların bu çətin dövrü rahat keçirmələri üçün əllərindən gələni etməyə çalışırlar".

### "Nail olduğumuz hər kiçik irəliləyiş böyük uğurdur"

Müəssisənin birinci mərtəbəsində 12 reabilitasiya otağı, digər 3 mərtəbədə isə 170 çarpayılıq yataq otaqları yerləşir. Mərkəzə gələn uşaqlara hər gün daxil olduqları qrupla birlikdə və ya fərdi şəkildə təyin olunmuş plan əsasında asılılıq səviyyələrinin aşağı salınması üçün sosial xidmətlər göstərilir.

Mərkəzin psixoloqu Zərinə Həsənova məlumat verir ki, benifisiarlar ilk gəldikdə onların psixoemosional vəziyyəti qiymətləndirilir, psixoloji yardıma ehtiyacı olan uşaqların vəziyyətinin stabilləşməsinə kömək edilir: "Mərkəzimizdə serebral iflic, əqli geriliyi və autizm spektr pozuntusu olan uşaqlar var. Biz onların inkişaf səviyyələrinə uyğun olaraq işlər aparırıq. Hazırda əlil arabasından istifadə edən benefisiarımız var ki, onunla apardığımız həm qrup, həm də fərdi halda reabilitasiya işləri nəticəsində müəyyən irəliləyişlər əldə etmişik. Həmin uşaq artıq yavaş-yavaş ayaq üstə dayana bilir, hətta bir-iki addım atmağa başlayıb. Xidmət göstərdiyimiz uşaqlarda aqressiv hallar da müşahidə olunur. Aqressiyanın korreksiyası və emosional balansın tənzimlənməsi istiqamətində terapiya otaqlarında işlər aparılır. Bütün bu işlər uşaqların əlillik dərəcələri nəzərə alınmaqla asandan çətin səviyyəyə doğru aparılır".

Psixoloq bildirir ki, mərkəz mütəxəssisləri mütəmadi olaraq "dəyirmi masa"lar təşkil edib benefisiarların inkişaf dinamikası ilə əlaqədar müzakirələr keçirirlər. Eyni zamanda gecə və gündüz növbəsində fəaliyyət göstərən mütəxəssislər də uşaqların real vəziyyəti ilə bağlı məlumat verir, aktlaşdırma işləri aparırlar. Bir sözlə, çoxprofilli kollektiv şəklində işləyirlər.

Müəssisə sakinlərinin nitq inkişafı ilə məşğul olan loqoped Arzu Qurbanovanın da işi olduqca mürəkkəbdir. Belə ki, mərkəzdə sakinlərin əksəriyyətinin nitqi çox zəif, qüsurludur, bir çoxunun nitqi isə, ümumiyyətlə, inkişaf etməyib. Loqopedin işinin mahiyyəti uşaqların nitqini inkişaf etdirmək, bu, mümkün olmadıqda isə verbal nitq üzərində işləməkdir: "Uşaqlara istədiklərini, fikirlərini, hiss etdiklərini bizə çatdırmaları üçün qeyri-verbal nitq vasitəsilə jestləri öyrədirik ki, ən azından haralarısa ağrıyanda, su, yemək istəyəndə bunu ifadə edə bilsinlər. Fəaliyyətimizi çətinləşdirən məsələ isə benefisiarlarımızın yaşlarıdır. Belə ki, beş yaşa qədər nitq tamamilə formalaşır. Buna görə də yaş artdıqca nəticə əldə etmək üçün müddət uzanır. Uşağın diaqnozundan asılı olaraq nəticə almadıqlarımız da çoxdur. Buna görə də nail olduğumuz hər bir kiçik irəliləyiş bizim üçün böyük uğurdur".

### Yaradıcılığın növü uşaqların bacarıqlarına görə seçilir

Reabilitasiyanın terapiya otaqlarında sakinlər müxtəlif yaradıcılıq növləri ilə məşğul olurlar. Hər yaradıcılıq sahəsinə görə ayrılmış bu otaqlarda benefisiarlar musiqi alətlərində ifa etməyi öyrənir, rəqs edir, kiçik motorikanın inkişafı üçün müxtəlif yaradıcılıq sahələri ilə məşğul olurlar.

Əmək təlimatçısı Pərvanə Yasinova bildirir ki, müəssisə sakinləri qruplara bölünərək günün müxtəlif saatlarında art terapiya ilə məşğul olurlar. Onlar bu zaman həm uşaqların kiçik motorika bacarıqlarını inkişaf etdirir, həm də asudə vaxtlarını dəyərləndirirlər. Emalatxanalarda müəssisə sakinləri iplərlə, muncuqlarla naxışlar tikir, boya edirlər. Həftədə iki dəfə keçirilən mətbəx terapiyasında isə kəsici alətlərdən istifadə etmədən meyvə salatı edir, xəmirdən fiqurlar kəsərək peçenye hazırlayırlar. Yaradıcılığın növü uşaqların bacarıqlarına görə seçilir. Uşaqların əksəriyyəti eyni anda bir neçə növ ilə məşğul olurlar. İsti havalarda isə otaqları təbiət əvəz edir. Uşaqlar müəssisənin həyətyanı sahəsində art terapiyalar keçir, yelləncəklərdə yellənir, ağacları sulayır, bir sözlə, təbiətlə birbaşa təmasda olurlar.

2008-ci ildən bu müəssisədə çalışan Pərvanə Yasinova mərkəzin təmir-bərpadan öncəki və sonrakı dövrünü müqayisə edir: "Mərkəzimiz demək olar ki, yenidən qurulub. Nə isitmə, nə isti-soyuq su, nə də ləvazimat çətinliyimiz yoxdur. Ehtiyac olduğu halda tibb mütəxəssisləri tərəfindən ilkin tibbi yardım göstərilir. Dövlət tərəfindən bütün tibbi ləvazimatlarla təmin edilmişik. Daha qəliz situasiyalarda isə xəstələrimiz ixtisaslaşmış tibb müəssisələrinə göndərilirlər. Bizim üçün gözəl şərait yaradıldığına görə diqqətimizi, gücümüzü kənar qayğılara deyil, yalnız benefisiarlarımızın inkişafına yönəldirik".

### "Mən ana və bacı nəvazişini, sevgisini onlardan alıram"

Reabilitasiya mərkəzinin mütəxəssisləri qeyd edirlər ki, bacarıqsız uşaq yoxdur, üzə çıxarılmamış istedad var. Buranın fəal sakinlərindən biri Həbib Tağıyev 4 yaşından mərkəzdə yaşayır. Mərkəzin onun evi olduğunu söyləyən Həbib dostlarıyla maraqlı vaxt keçirir, mahnı oxuyur, rəqs edir, müxtəlif tamaşalarda iştirak edir, dama, domino və stolüstü tennislə məşğul olur. Stolüstü tennisdə xüsusilə fərqlənən Həbib bu bacarığı ilə ölkə sərhədlərini də aşıb. O, Belçikada və ABŞ-də keçirilən stolüstü tennis üzrə xüsusi yarışlarda dəfələrlə iştirak edərək qızıl və gümüş medallar qazanıb.

Həbibin 22 yaşı olmasına baxmayaraq, o, hələ də müəyyən müddət burada yaşamağa davam edəcək. Qaydaya görə, 18 yaşı tamam olmuş benefisiarlar tədricən, hissə-hissə digər mərkəzlərə köçürülürlər. Amma mərkəz hələlik Həbibdən ayrılmaq istəmir.

Mərkəzin digər istedadlı sakini Xəyalə Hüseynovanın isə 15 yaşı var. Musiqi, rəsm və mətbəx kimi bir neçə yaradıcılıq növü ilə məşğul olan Xəyalə şeir söyləyir, dostları ilə birlikdə musiqi ifa edir. Asudə vaxtını necə keçirdiyini soruşduqda isə o, Mehriban xanım və Leyla xanım ilə növbəti görüşə hazırlaşdığını bildirdi: "Mən ana və bacı nəvazişini, sevgisini onlardan alıram. Hər dəfə yeni bacarıqlar öyrənib Mehriban xanıma göstərmək üçün səbirsizliklə onu gözləyirəm".

### Günərzi qayğı mərkəzi

Sosial reabilitasiya mərkəzi yerində dayanmır, daim inkişaf edir, benefisiarlar və onların valideynlərinin həyatının asanlaşdırılması üçün mühüm addımlar atılır. Burada artıq iki ildir qeyri-stasionar, yəni günərzi qayğı mərkəzi də fəaliyyət göstərir. Mərkəzin yaradılmasında məqsəd müəssisələşmənin qarşısını almaq üçün uşaqların ailə mühitində böyümələridir. Günərzi mərkəzində sakin sayı 10 nəfərdir. Onlar valideynləri tərəfindən hər gün 9-da mərkəzə gətirilir, axşam 6-da isə evə aparılır. Burada uşaqlar gün ərzində 3-5 dəfə qidalanır, art terapiyalarda iştirak edir, günorta onlar üçün ayrılmış yataq otaqlarında dincəlirlər.

Günərzi mərkəzinin mentoru Balacaxanım Qasımova məlumat verir ki, uşaqları burada olduğu müddətdə valideynləri işə gedir və ya gündəlik işləri ilə məşğul olurlar: "Mütəxəssis olmadığın təqdirdə həssas təbəqəyə aid, əqli və fiziki məhdudiyyətli uşaqlarla daim məşğul olmaq çox çətindir. Burada uşaqlarımız yeni bacarıqlar öyrənir, onların sosial, funksional, qavrama bacarıqları inkişaf etdirilir. Günərzi mərkəzinə 5 yaşından kiçik uşaqlar da qəbul edilir. Müəssisəmizin psixoloq və mentorları valideynlərlə işlər aparır, ayda bir dəfə onlarla görüş təyin edilir. Bu görüşlərdə onlara evdə uşaqlarla necə rəftar etməli, onlara qulluq göstərmələri izah edilir. Habelə valideynlərin psixoloji vəziyyətlərinin stabilliyi üçün onlarla söhbətlər edilir, dəstək göstərilir. Bu dəstək və təlimlər yalnız valideynlərə deyil, həmçinin mütəxəssislərə də göstərilir. Mərkəzimizdə mentorlar mütəmadi olaraq ayda bir və ya bir neçə dəfə təlimlərdə iştirak edir, bilik və bacarıqlarını inkişaf etdirirlər".

Uşaqlar hər bir dövlətin və cəmiyyətin gələcəyidir. Azərbaycan dövlətinin də əsas vəzifələrindən biri xoşbəxt gələcəyə, sağlam cəmiyyətə nail olmaq üçün uşaqlara diqqət və qayğı göstərmək, onların hərtərəfli inkişafı üçün münbit şərait qurmaqdır. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar da diqqət və qayğıdan kənarda qalmır. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mühüm fəaliyyət nəticəsində bu uşaqlar da cəmiyyətimizə uğurla reinteqrasiya olunurlar.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*